***Sevil BƏHRƏMOVA*** *

# XXI ƏSRDƏ AZƏRBAYCANDA MULTİKULTURALİZM

**Açar sözlər:** dini dəyərlər, islam mədəniyyəti, multikulturalizm, "Bakı prosesi", tolerantlıq.

**Ключевые слова:** религиозные ценности, исламская культура, мультикультурализм, «Бакинский процесс», толерантность.

**Key words:** religious values, Islamic culture, multiculturalism, "Baku process", tolerance.

Miqrasiyanın genişlənməsi mədəniyyətlərarası təması daha da yaxınlaşdırır və dünyanın mədəni mənzərəsini daha rəngarəng görüntülərlə sərgiləyir. Bir tərəfdən milli mənəvi dəyərlərin dirçəlməsi, digər tərəfdən isə dini dəyərlərə qayıdış cəhdləri demokratik cəmiyyətdə dinin ictimai statusuna, onun cəmiyyətdəki yeri və rolu məsələlərinə diqqəti artırır.

Məlumdur ki, dini dəyərlər ilk növbədə humanizmin və ədalətin rəhnidir. İnsanları dinə cəlb edən də ilk növbədə onun məhz ədalətə çağırış konsepsiyası idi. Din humanizmin, insanpərvərliyin bir simvolu olmuşdur. Lakin zaman keçdikcə cəmiyyətdə möhkəmlənən sosial təbəqələşmə onu məzlumları itaətdə saxlamaq üçün ideoloji vasitəyə çevirmişdir. Bu proses yalnız İslamla bağlı deyil, taix göstərmişdir ki, istər xristianlıqda, istərsə də iudaizmdə və digər dinlərdə dini ideologiyanın hökmü mövcud olmuşdur. Təkcə Katolik Kilsəsinin səlib yürüşlərini, inkvizisiya dövrünü xatırlamaq kifayət edər. Təsadüfi deyil ki, məhz bu kimi aksiyalar Avropaya digər dinlərin nüfuz etməsinə imkan verməmişdir (1, s.24).

Uzun illər dünya cəmiyyəti Qərb inkişaf nümunəsini gələcəyin yeganə inkişaf modeli olaraq qəbul edirdi. Təsadüfi deyil ki, qeyd etdiyimiz sosioloq, "mədəniyyətlərarası toqquşma" nəzəriyyəsinin banisi S.Hantiqton qeyd edir ki, Qərb sivilizasiyasının tarixi-mədəni irsini tamamlayan ünsürlərdən biri də xristianlıqdır (2, s.109). Onun sözlərindən belə çıxır ki, xristianlıq olmasa, biz bu sivilizasiyaya Qərb deyə bilmərik. Lakin müasir Qərb mədəniyyəti digər mədəniyyətlərlə münasibətlərini konkret model-

* **Bəhrəmova Sevil** - Azərbaycan Dövlət Pedaqoji Universiteti, Tarix və coğrafiya fakültəsinin müəllimi, sevil_behremova@mail.ru

ləşmə mahiyyətinə əsaslandırmaqla iqtisadi uğuru mədəni inkişafın əsas elementi, onu müdafiə edən təfəkkürü isə dəyişikliklərin hərəkətverici qüvvəsi kimi təqdim etməkdədir. İndiyədək Qərb sivilizasiyası öz inkişaf meyilləri, yaşam tərzi ilə dünya ölkələri üçün bir nümunə hesab edilirdi.

Dünyanın Qərb modeli üzərində modernləşməsi son iki yüz il ərzində İslamı siyasi və sosial həyatdan uzaqlaşdırmışdır. Din və dini dəyərlər insanların həyatında arxa plana keçmişdir. Bununla belə, son onilliklərdə dünyanın yeni inkişaf meyilləri, informasiya texnologiyalarının geniş imkanları, insan fəaliyyətinin çoxşaxəliliyi və dinamikliyi onu əhatə edən sosial-mədəni atmosferi köklü şəkildə dəyişdirə bildi. Qərbin homogenliyi, mədəni müxtəlifliyin heterogen tendensiyalarının təsiri altında yeni institutlaşma, çoxukladlı demokratiya, yeni iqtisadi və siyasi təşkilatlanma (çoxlu mərkəz) formalaşdıra bilmişdır. Din müəyyən mənada, sosial həyata nüfuz etməyə başladı(8).

Şərqdə multikulturalizm ideyalarının reallaşması həm də müasir mənəvi normaların ictimai təcrübədə istifadəsinə nail olmaq və İslam ənənələrinə müraciət etməklə müasirliyin cağrılarına cavab verməkdir. Bu gün müasirliyin tələblərinə cavab verməyi bacaran İslamın yeni dirçəliş hərəkatı güclənmişdir. Bu hərəkat müsəlmanlar arasında tolerantlıq ideyalarının kök salmasına, sülh mədəniyyətinin təbliğinə, insan hüquqlarının həyata keçirilməsinə, mədəni, dini, etnik müxtəlifliyin qəbul olunmasına kömək edə bilər. Qürurla qeyd edə bilərik ki, Azərbaycan Respublikasının apardığı multikulturalizm kimi dövlət siyasəti məhz belə ideyaların reallaşmasına xidmət edir.

Multilkulturalizm tərəfdarları iddia edirlər ki, çoxlu mədəniyyətin bərabər şəkildə inkişafı dövlətin stabil inkişafını təmin edə bilər. Bu mənada, tanınmış Azərbaycanlı alim Z.Quluzadə qeyd edir ki, multikulturalizm konsepsiyası siyasi ideologiyanın bir parçası kimi müxtəlif mədəniyyətə, iqtisadi və siyasi statusa malik qrupların Qərbin inkiaşaf etmiş ölkələrində stabil quruluşun mövcudluğuna, dözümlülük və harmonik fəaliyyətin hüquqi-siyasi tələblərinin müəyyənləşməsinə istiqamətlənmiş bir məfhumdur (3).

Müasir Avropada multimədəni cəmiyyətin formalaşmasını qeyri-real bir təcrübə kimi qəbul edənlərə qarşı çıxış edən M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, professor Nərgiz





Paşayeva bildirir ki, Avropada multikulturalizmin iflası əslində multikulturalizmin fərqli şərhlərdən asılılığının ifadəsidir. O, sosial və siyasi məsələlərdə iflasa uğraya bilər, belə ki, "aparıcı millət" qloballaşmaqla öz üstünlüyünü təcəssüm etdirməkdədir. Bununla da azlıqları sıxışdıraraq onlarda müəyyən çatışmazlıq kompleksi formalaşdıra bilər. Bu zaman cəmiyyətdə yaranan sosial xarakterli münaqişələrin qarşısını ala bilməz. Lakin multikulturalizm anlayışının izahında humanizmi, bəşəri dəyərləri əks edən ifadələrə üstünlük verməklə hər bir fərdin özünü fərqli, müstəqil hiss etməsinə imkan vermək, ümumi maraqlarla fərdin maraqlarını, dövlətin və dünyanın maraqları arasında münaqişələrin qarşısını almaq olar (5).

Multikulturalizm tərəfdarı olan hər bir ölkə yeni multikulturalizm modelləri ilə nümunə olmağa çalışır. Son illər Azərbaycan öz dinc yaşama təcrübəsi ilə daha çox diqqəti cəlb etməkdədir. Bu mənada, biz bu gün qürurla əsası Heydər Əliyev tərəfindən qoyulmuş və İlham Əliyev tərəfindən uğurla davam etdirilən Azərbaycan Respublikasının öz multikulturalizm modelindən danişa bilərik.

Bu gün də azərbaycanlıların sayca çoxluq təşkil etməsinə baxmayaraq, ölkəmiz polietnik dövlətdir. Azərbaycan udinlər, qrızlar, xınaqlıqlar, tatlar, talışlar, ləzgilər, avarlar, dağ yəhudiləri kimi millətlərin tarixi vətənidir. Sovet illərində və ondan sonra gəlib yaşamış xeyli sayda digər milli və mədəni qruplar da var. Hər bir qrup öz millətinin unikal dəyərlərinin daşıyıcısı kimi çıxış etməkdədir. Bu gün təkcə Bakı şəhərində 20-dən çox etnik qrupun mədəniyyət cəmiyyətləri fəaliyyət göstərir.

Multikulturalizm ideyalarının hüqiqi bazası da ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Onun bilavasitə iştirakı ilə tərtib olunmuş Azərbaycan qanunları hər bir mədəniyyətə bərabər hüquqlar təmin etməklə birinin digərinin üzərində üstünlüyünə imkan vermir. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci,40-cı, 44-cü, 45-ci, 46-cı, 48-ci və bir sıra digər maddələri bütün vətəndaşların mədəniyyətini, milli mənsubiyyətini, ana dilindən istifadə etməsini, şərəf və ləyaqətinin qorunmasını, vicdan azadlığını bərabər şəkildə təmin edir. Həmçinin respublikamız beynəlxalq cəmiyyətin bu istiqamətdə qəbul etdiyi bütün prinsiplərlə həmrəy olduğunu da bildirmişdir.

Multikulturalizm həm də mədəniyyətlərin daha zənginləşməsinə xidmət edir. Şərq və Qərb mədəniyyətinin qovuşuğunda yerləşən və bu mədə-

ləşmə mahiyyətinə əsaslandırmaqla iqtisadi uğuru mədəni inkişafın əsas elementi, onu müdafiə edən təfəkkürü isə dəyişikliklərin hərəkətverici qüvvəsi kimi təqdim etməkdədir. İndiyədək Qərb sivilizasiyası öz inkişaf meyilləri, yaşam tərzi ilə dünya ölkələri üçün bir nümunə hesab edilirdi.

Dünyanın Qərb modeli üzərində modernləşməsi son iki yüz il ərzində İslamı siyasi və sosial həyatdan uzaqlaşdırmışdır. Din və dini dəyərlər insanların həyatında arxa plana keçmişdir. Bununla belə, son onilliklərdə dünyanın yeni inkişaf meyilləri, informasiya texnologiyalarının geniş imkanları, insan fəaliyyətinin çoxşaxəliliyi və dinamikliyi onu əhatə edən sosial-mədəni atmosferi köklü şəkildə dəyişdirə bildi. Qərbin homogenliyi, mədəni müxtəlifliyin heterogen tendensiyalarının təsiri altında yeni institutlaşma, çoxukladlı demokratiya, yeni iqtisadi və siyasi təşkilatlanma (çoxlu mərkəz) formalaşdıra bilmişdır. Din müəyyən mənada, sosial həyata nüfuz etməyə başladı(8).

Şərqdə multikulturalizm ideyalarının reallaşması həm də müasir mənəvi normaların ictimai təcrübədə istifadəsinə nail olmaq və İslam ənənələrinə müraciət etməklə müasirliyin çağrılarına cavab verməkdir. Bu gün müasirliyin tələblərinə cavab verməyi bacaran İslamın yeni dirçəliş hərəkatı güclənmişdir. Bu hərəkat müsəlmanlar arasında tolerantlıq ideyalarının kök salmasına, sülh mədəniyyətinin təbliğinə, insan hüquqlarının həyata keçirilməsinə, mədəni, dini, etnik müxtəlifliyin qəbul olunmasına kömək edə bilər. Qürurla qeyd edə bilərik ki, Azərbaycan Respublikasının apardığı multikulturalizm kimi dövlət siyasəti məhz belə ideyaların reallaşmasına xidmət edir.

Multilkulturalizm tərəfdarları iddia edirlər ki, çoxlu mədəniyyətin bərabər şəkildə inkişafı dövlətin stabil inkişafını təmin edə bilər. Bu mənada, tanınmış Azərbaycanlı alim Z.Quluzadə qeyd edir ki, multikulturalizm konsepsiyası siyasi ideologiyanın bir parçası kimi müxtəlif mədəniyyətə, iqtisadi və siyasi statusa malik qrupların Qərbin inkiaşaf etmiş ölkələrində stabil quruluşun mövcudluğuna, dözümlülük və harmonik fəaliyyətin hüquqi-siyasi tələblərinin müəyyənləşməsinə istiqamətlənmiş bir məfhumdur (3).

Müasir Avropada multimədəni cəmiyyətin formalaşmasını qeyri-real bir təcrübə kimi qəbul edənlərə qarşı çıxış edən M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, professor Nərgiz





Paşayeva bildirir ki, Avropada multikulturalizmin iflası əslində multikulturalizmin fərqli şərhlərdən asılılığının ifadəsidir. O, sosial və siyasi məsələlərdə iflasa uğraya bilər, belə ki, "aparıcı millət" qloballaşmaqla öz üstünlüyünü təcəssüm etdirməkdədir. Bununla da azlıqları sıxışdıraraq onlarda müəyyən çatışmazlıq kompleksi formalaşdıra bilər. Bu zaman cəmiyyətdə yaranan sosial xarakterli münaqişələrin qarşısını ala bilməz. Lakin multikulturalizm anlayışının izahında humanizmi, bəşəri dəyərləri əks edən ifadələrə üstünlük verməklə hər bir fərdin özünü fərqli, müstəqil hiss etməsinə imkan vermək, ümumi maraqlarla fərdin maraqlarını, dövlətin və dünyanın maraqları arasında münaqişələrin qarşısını almaq olar (5).

Multikulturalizm tərəfdarı olan hər bir ölkə yeni multikulturalizm modelləri ilə nümunə olmağa çalışır. Son illər Azərbaycan öz dinc yaşama təcrübəsi ilə daha çox diqqəti cəlb etməkdədir. Bu mənada, biz bu gün qürurla əsası Heydər Əliyev tərəfindən qoyulmuş və İlham Əliyev tərəfindən uğurla davam etdirilən Azərbaycan Respublikasının öz multikulturalizm modelindən danişa bilərik.

Bu gün də azərbaycanlıların sayca çoxluq təşkil etməsinə baxmayaraq, ölkəmiz polietnik dövlətdir. Azərbaycan udinlər, qrızlar, xınaqlıqlar, tatlar, talışlar, ləzgilər, avarlar, dağ yəhudiləri kimi millətlərin tarixi vətənidir. Sovet illərində və ondan sonra gəlib yaşamış xeyli sayda digər milli və mədəni qruplar da var. Hər bir qrup öz millətinin unikal dəyərlərinin daşıyıcısı kimi çıxış etməkdədir. Bu gün təkcə Bakı şəhərində 20-dən çox etnik qrupun mədəniyyət cəmiyyətləri fəaliyyət göstərir.

Multikulturalizm ideyalarının hüqiqi bazası da ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Onun bilavasitə iştirakı ilə tərtib olunmuş Azərbaycan qanunları hər bir mədəniyyətə bərabər hüquqlar təmin etməklə birinin digərinin üzərində üstünlüyünə imkan vermir. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci,40-cı, 44-cü, 45-ci, 46-cı, 48-ci və bir sıra digər maddələri bütün vətəndaşların mədəniyyətini, milli mənsubiyyətini, ana dilindən istifadə etməsini, şərəf və ləyaqətinin qorunmasını, vicdan azadlığını bərabər şəkildə təmin edir. Həmçinin respublikamız beynəlxalq cəmiyyətin bu istiqamətdə qəbul etdiyi bütün prinsiplərlə həmrəy olduğunu da bildirmişdir.

Multikulturalizm həm də mədəniyyətlərin daha zənginləşməsinə xidmət edir. Şərq və Qərb mədəniyyətinin qovuşuğunda yerləşən və bu mədə-

niyyətlərin yüksək mənəvi dəyərləri ilə zənginləşən Azərbaycan xalqı tarixən öz milli mənəvi irsi və tolerantlıq ənənələri ilə nümunə ola biləcək təcrübə nümayiş etdirmişdir. Çoxmillətli və çox konfessiyalı ölkə kimi respublikamız bu sahədə öz təcrübəsi ilə dünya miqyasında çıxış etməkdən çəkinmir. İlham Əliyev multikulturalizmlə bağlı qeyd etmişdir: "Multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir. Bu gün Azərbaycan artıq dünyada tanınmış multikulturalizm mərkəzlərindən biridir. Biz diqqəti ona görə bu məsələlər üzərində cəmləşdiririk ki, bu mövzuya yanaşmalar müxtəlifdir. Təəssüf ki, belə fikirlər də var ki, bəzi ölkələrdə multikulturalizm iflasa uğrayıb, özünü doğrultmayıb. Bunlar çox narahatlıq doğuran bəyanatlar, tendensiyalardır. Əgər bu həqiqətən belədirsə, onda bu ciddi müzakirə mövzusudur. Azərbaycanda isə belə hesab edirəm ki, biz öz siyasətimizlə də, cəmiyyətin durumu ilə də sübut edirik ki, elə deyil, multikulturalizm yaşayır. O yaşayır, möhkəmlənir, dərin köklərə malikdir və gələcəkdə bəşəriyyətin inkişafının yeganə yoludur" (318).

Dövlətimizin həyat fəaliyyətinin bütün sahələrində olduğu kimi, mədəniyyətlərarası münasibətlər və etnokonfessional sferada siyasət də misilsiz uğurlara imza atmışdır. Dünyada yetərincə mürəkkəb siyasi proseslərin cərəyan etdiyi, iqtisadi böhran və depressiyaların geniş miqyas kəsb etdiyi, hərbi qarşıdurmaların, sosial və geosiyasi münaqişələrin təhlükəli həddə çatdığı bir zamanda Azərbaycan nəinki qlobal təhdidlərə müvəffəqiyyətlə sinə gərmiş, həmçinin bir çox inkişaf etmiş ölkə üçün belə örnək sayıla biləcək öz unikal modelini əməli müstəviyə çıxarmışdır(8).

Tarixdə ilk dəfə olaraq Prezident İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildə Avropa Şurasının mədəniyyət nazirlərinin toplantısı Bakıda keçirildi və bu tədbirə İslam Əməkdaşlıq Təşkilatının mədəniyyət nazirləri də dəvət edildi. Bu tədbirin böyük siyasi mənası var idi. Belə ki, 48 ölkənin, 8 beynəlxalq təşkilatın və bir sıra beynəlxalq qeyri-hökumət təşkilatlarının yüksək səviyyəli nümayəndələrinin iştirak etdikləri bu konfransda Azərbaycanın təşəbbüsü ilə ilk dəfə olaraq "Mədəniyyətlərarası dialoqun təşviqinə dair Bakı Bəyannaməsi" qəbul edilmişdir. 2009-cu ildə Bakıda keçirilmiş İslam ölkələrinin mədəniyyət nazirlərinin VI konfransına Azərbaycanın təşəbbüsü ilə Avropa Şurasının mədəniyyət nazirləri dəvət edildi. Bununla da sivilizasiyalar arasında dialoqun inkişafını nəzərdə tutan "Bakı prosesinin" əsası qoyulmuşdur. Bu proses mədəniyyətlər





arasında anlaşmanın, dialoqun və tolerantlığın, habelə Müsəlman və Qərb cəmiyyətləri arasında əməkdaşlığın inkişafı, xalqlar arasında olan dini və mədəni gərginliyin azaldılması məqsədilə barışdıran və sakitləşdirən qüvvələrə dəstək göstərməklə, mədəniyyətlər arasında hörmət və qarşılıqlı anlaşmanın qurulması və s. bu kimi hədəfləri güdür.

"Bakı prosesi" sonradan Azərbaycanda dünya liderlərinin Zirvə görüşünün, mədəniyyətlərarası dialoq və Bakı Beynəlxalq Humanitar forumlarının keçirilməsinə təkan verdi. Tədricən sözügedən proses qlobal hadisəyə çevrildi. 2010-cu ildə BMT Baş Məclisinin 65-ci sessiyasında çıxış edərkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev növbəti il Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsini elan etmişdir. Prezident İlham Əliyevin müvafiq Fərmanı ilə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu hər iki ildən bir Azərbaycanda keçirilir. İndiyədək Bakıda üç Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir (I Forum 7-9 aprel, 2011; II Forum 29 may-01 iyun, 2013; III Forum 18-19 may, 2015). Bu Forumlar YUNESKO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, İSESKO, BMT-nin Dünya Turizm Təşkilatının tərəfdaşlığı ilə reallaşmışdır. "Bakı prosesi" çərçivəsində həyata keçirilmiş digər mühüm tədbirlərdən ölkəmizdə 2010-cu il 26-27 aprel tarixlərində keçirilmiş Dünya Dini Liderlərinin Sammitini, 2011-ci ildən indiyədək keçirilmiş dörd Beynəlxalq Humanitar Forumu (2011, 2012, 2013 və 2014) və 2016-cı ilin 25-27 aprel tarixlərində keçirilmiş Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunu göstərmək olar. Yeri gəlmişkən, sonuncu tədbirin Bakıda keçirilməsi Azərbaycan dövlətinin nüfuzunun daha da artmasında, eləcə də xalqımızın tarixi-mədəni irsinin dünya miqyasında tanıdılmasında və təbliğində böyük önəmə malikdir. Eyni zamanda bu, dünya ictimaiyyətinin Azərbaycanın özünəməxsus multikultural modelinə marağını da ifadə edir.

Bu mənada, İlham Əliyev təsadüfi yerə qeyd etməmişdir: "Hesab edirəm ki, multikulturalizmi gələcəyi olmayan məfhum kimi təqdim etmək təhlükəlidir, əksinə səylərimizi dayandırsaq, dünyada vəziyyət daha da pisləşəcək".

Son illərdə İlham Əliyevin başçılığı ilə tolerantlığın və multikulturalizm ideyalarının təbliği sahəsində, dinlərarası diaqloqa həsr edilmiş xeyli sayda forum, konfrans, görüşlər keçirilmişdir. Onların arasında "De-

mokratik cəmiyyətdə din və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması" mövzusunda Beynəlxalq Elmi Konfrans (Bakı, 10-11 oktyabr 2002-ci il ), "Din və demokratiya: nəzəriyyə və tarixi təcrübə" (Bakı, 21 iyun 2004-cü il), "Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər" mövzusunda Beynəlxalq Konfrans, (Bakı, 3-4 aprel 2007-ci il ), "Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru" mövzusunda Beynəlxalq Konfrans (Bakı, 6-7 noyabr 2009-cu il ), Dünya dini liderlərinin Bakı Sammiti (26-27 aprel 2010-cu il), "Mədəniyyətlərarası Dialoq Forumu" (Bakı 2011-ci il), "XXI əsr: ümidlər və çağırışlar" devizi ilə keçirilən Beynəlxalq Humanitar Forumu (Bakı, 2011-ci il 10-11 oktyabr), "Dövlət və din: dəyişən dünyada tolerantlığın gücləndirilməsi" Birinci Beynəlxalq Bakı Forumu (2012-ci il 19-21 dekabr), Bakı Beynəlxalq Humanitar Forumu (2014-cü il 2-3 oktyabr) kimi tədbirləri xüsusilə vurğulamaq lazımdır(8).

Bu cür tədbirlərin Bakıda keçirilməsi bir daha təsdiqləyir ki, bütün insanların və cəmiyyətlərin dialoq şəraitində yaşaması vacibdir və bu mənada Azərbaycan təcrübəsinin öyrənilməsi bir çox dünya ölkələri üçün faydalıdır. Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdəki mövcud durumun və tarixi təcrübənin buna imkan verdiyini bildirərək demişdir: "Azərbaycanın tarixi və keçmişi göstərir ki, bunu etmək mümkündür. Bu gün Azərbaycan müstəqil ölkə kimi həm Avropa Şurasının, həm də İslam Əməkdaşlığı Təşkilatının üzvüdür. Azərbaycan nadir ölkələrdəndir ki, hər iki təşkilatda üzvdür və eyni zamanda, fəal üzvdür. Sivilizasiyaları, dünya dinlərini birləşdirmək, əməkdaşlığı dərinləşdirmək üçün hesab edirəm ki, bizim ölkə kifayət qədər böyük səylər göstərir. Ən önəmlisi ondan ibarətdir ki, bu səylər öz nəticəsini verməkdədir. Çünki əgər belə olmasaydı, Azərbaycanın bu sahədəki təcrübəsi maraq doğurmazdı" (7).

Azərbaycan rəhbərliyi multikulturalizm sahəsində dövlətimizin strateji prinsiplərinin institusional səviyyədə təsbiti istiqamətində daha təsirli addımlar atmaqdadır. Prezident İlham Əliyev 28 fevral 2014-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət Müşavirinin Xidmətini yaratmışdır. Bu gün bu xidmət ölkənin ideoloji həyatının önəmli istiqamətlərini əlaqəli şəkildə öyrənən, obyektiv səbəbdən özünü göstərən müəyyən boşluqların doldurulmasını təmin edən vacib bir orqan kimi fəaliyyətini qurmaqdadır.





Prezident İlham Əliyevin multikulturalizm siyasətinin növbəti əhəmiyyətli addımı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılmasına dair 15 may 2014-cü il tarixində imzaladığı fərman oldu. Bu mərkəzin yaradılmasının əsas məqsədi ölkəmizdə əsrlər boyu formalaşmış tolerantlığın, etnik-mədəni, dini müxtəlifliyin qorunmasını və çiçəklənməsini təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modellərini tədqiq və təşviq etməkdir. Mərkəz millətlərarası, konfessiyalararası və mədəniyyətlərarası münasibətlər sahəsində ölkəmizin təcrübəsinin öyrənilməsi və təbliği üzrə müxtəlif layihələr həyata keçirir.

Prezident İlham Əliyevin 2015-ci il noyabrın 17-də Parisdə UNESKO Baş Konfransı 38-ci sessiyasının Liderlər Forumunun tribunasından Ermənistanın mədəni irsə qarşı vandalizm siyasətinin ifşası səciyyəvidir: "İşğal nəticəsində ölkəmizin 600-dən çox tarixi və memarlıq abidəsi, 40 min eksponatı olan 22 muzey, 10 məscid məhv edilmişdir. Buna baxmayaraq, siz bu gün Bakının mərkəzində Azərbaycan hökuməti tərəfindən bərpa edilmiş erməni kilsəsini görə bilərsiniz... Ermənilər bizim tarixi irsimizi məhv ediblər, lakin onlar bizim iradəmizi məhv edə bilməzlər, evlərinə geri qayıtmaq istəyən qaçqın və məcburi köçkünlərin, Bakıda və Azərbaycanın digər şəhərlərində dünyaya gələn, öz tarixi torpaqlarını heç vaxt görməyən, lakin doğma torpaqlarına qayıtmaq üçün qəlbində böyük iradə ilə yaşayan insanların nəvə və nəticələrinin iradəsini məhv edə bilməzlər" (7).

Uğurla gerçəkləşdirilən siyasi kurs çərçivəsində İlham Əliyev cənabları Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanılması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məq-sədilə 2016-cı il yanvarın 11-də 2016-cı ilin "Multikulturalizm İli" elan edilməsi haqqında Sərəncam imzalamışdır. Daha sonra, mart ayının 11-də Azərbaycan Respublikası Prezidentinin növbəti sərəncamı ilə "Multikulturalizm ili elan edilməsinə dair Tədbirlər Planı" təsdiqlənmişdir. Bu mühüm dövlət sənədi Azərbaycan hökumətinin sözügedən sahədə prioritet vəzifələrini müəyyənləşdirir. Əslində multikultural sferada "Tədbirlər Planı" kimi təfərrüatlı bir proqramın qəbulu ölkəmizdə bu məsələyə verilən önəmi vurğulamaqla yanaşı, dövlətin humanitar siyasətinin institusional cəhətdən təkmilləşməsini göstərir və bu siyasəti keyfiyyətcə yeni mərhələyə çıxarır.

Cəmiyyətdə fərqli baxışlara, mədəniyyətlərə, dinlərə hörmətin bərqərar olması üçün gənc nəslin bu ruhda yetişdirilməsi mühüm məsələlərdən biridir. Gənclər hələ uşaq yaşlarından öz həmyaşıdlarına, onların milli mənsubiyyətinə, dini baxışlarına, dünyagörüşlərinə sayğı ilə yanaşma vərdişlərinə yiyələnməlidirlər. Belə ki, insanlar təkcə multikulturalizm ideyalarının əhəmiyyətli tərəflərini bilməli deyil, həm də onları öz əməlləri ilə nümayiş etdirməyi bacarmalıdırlar. Bu mənada, müasir təhsilin üzərinə az iş düşmür. Multikulturalizmin gənclər arasında təbliğ edilməsi də mütərəqqi hallardandır. Bu baxından Azərbaycan Respublikası Prezidenti yanında fəaliyyət gösətərən Bilik Fondunun bu sahədə apardığı işləri də təqdirəlayiq hesab etmək olar.

Beləliklə, dünyada baş verən hadisələr mədəni mühitin münaqişəli xarakterinə böyük təsir edən amillərdən biridir. Etnik və dini qrupların adaptasiya xüsusiyyətləri fərqlidir. Onların sərbəst şəkildə, assimilyasiyaya məruz qalmadan yaşaması sabitlik və əminamanlığın rəhni olaraq günün şərtinə çevrilmişdir. Bu mənada, müasir multikulturalizm dövlətin sosial mədəni strategiyasını müəyyənləşdirən məsələdir. Belə ki, alternativliyi, plüralizmi, demokratik baxışları müdafiə etməklə sosial mühitdə baş verən müxtəlif münaqişələrin aradan qaldırılmasında, stabil inkişafın yaradılmasında böyük əhəmiyyətə malikdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Rüstəmov Y. Sivilizasiyaların qarşılıqlı münasibəti (S. Hantiqton). Bakı: Səda, 2007, 144 s.
2. Хантингтон С. Сталкновение цивилизаций. М.: Издательство АСТ, 2003, 603 с.
3. Qurbanov F. Sivilizasiyaların dialoqu: sinergetik yanaşma// Şərq-Qərb sivilizasiyaların dialoqu, № 1. Bakı: Təknur, 2005. s.119-131
4. Səmədov E. Azərbaycanda din-dövlət münasibətləri və dini təhsilin formalaşması. Bakı: AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq İn-tu. 2009, 169 s.
5. Paşazadə A. Qafqazda İslam: tarix və müasirlik. Bakı, 1991, 224 s.
6. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı http://www .president.az/
7. Niftiyev N. Azərbaycanda birgəyaşayış və multikulturalizm. Bakı:2015, 408 s.
8. Orucov H. Azərbaycanda din. Ən qədim dövrdən bu günədək. Bakı: İdrak, 2012, 428 s.






## MULTICULTURALISM IN AZERBAIJAN IN THE XXI CENTURY SUMMARY


The given article mentions measures taken to preserve national values as well as tolerance and multiculturalism in the Republic of Azerbaijan. Within the successful course of the political course Mr. Ilham Aliyev has signed an Order on declaring 2016 as the Year of Multiculturalism on January 11, 2016 in order to preserve, further develop and broaden the traditions of multiculturalism in Azerbaijan. Then, on March 11, the next Order of the President of the Republic of Azerbaijan, approval of the Action Plan on the announcement of the Year of Multiculturalism, and such issues are reflected in the article.


## МУЛЬТИКУЛЬТУРАЛИЗМ В АЗЕРБАЙДЖАНЕ В XXI ВЕКЕ РЕЗЮМЕ


В данной статье упоминаются меры, принятые для сохранения национальных ценностей, а также терпимости и мультикультурализма в Азер-байджанской Республике. В рамках успешного курса политического курса г-н Ильхам Алиев подписал Указ об объявлении 2016 года Годом мультикультурализма 11 января 2016 года с целью сохранения, дальнейшего развития и расширения традиций мультикультурализма в Азербайджане. Затем, 11 марта, очередное распоряжение Президента Азербайджанской Республики об утверждении Плана действий по объявлению Года мультикультурализма, и такие вопросы отражены в статье.